**UOT 78**

**ORCID: 0009-0000-4010-4099**
**DOI: 10.52094/ZABI8224**

**Aynurə Tahir qızı Əliyeva**
**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası**
**Dissertant**
aynurazaliyeva@gmail.com

# BƏSTƏKAR FƏRHƏNG HÜSEYNOVUN YARADICILIĞINDA SÜLH MÖVZUSU

**Xülasə:** Məqalədə Azərbaycan bəstəkarı Fərhəng Hüseynov yaradıcılığında sülh mövzusunun bədii-estetik və fəlsəfi təcəssüm formaları araşdırılır. Tədqiqatda sülh ideyasının dünya musiqi mədəniyyətində və Azərbaycan bəstəkarlıq məktəbində tarixi inkişaf mərhələləri qısa şəkildə nəzərdən keçirilərək, bu mövzunun Fərhəng Hüseynovun yaradıcılığında aparıcı xəttlərdən biri olduğu əsaslandırılır. Bəstəkarın "Müharibə əleyhinə kantata", "Stabat mater", "Günəş himni", xüsusilə də "Yer üzündə sülhə nail olmalı" oratoriyası əsasında sülh konsepsiyasının musiqi dili, janr xüsusiyyətləri və obrazlar sistemi kontekstində təhlili aparılır. Müəyyən edilir ki, bəstəkar sülh ideyasını yalnız müharibəyə etiraz və humanist çağırış kimi deyil, həm də insanın mənəvi kamilliyi, təbiətlə harmoniyası və ümumbəşəri dəyərlərin təntənəsi kimi təqdim edir. Əsərlərdə uşaq xorunun, dini mətnlərin, mürəkkəb orkestr fakturasının, ağac nəfəsli alətlərin və rəngarəng zərb tembrlərinin istifadəsi sülh obrazının emosional və fəlsəfi dərinliyini gücləndirən əsas ifadə vasitələri kimi çıxış edir. Tədqiqat nəticəsində belə qənaətə gəlinir ki, Fərhəng Hüseynovun sülh mövzulu əsərləri Azərbaycan musiqi mədəniyyətində bu ideyanın yüksək bədii-estetik səviyyədə ifadəsinin parlaq nümunələrindən biri olmaqla yanaşı, ümumbəşəri humanist idealların musiqidə təcəssümünün mühüm göstəricisidir.
**Açar sözlər:** Fərhəng Hüseynov; sülh mövzusu; oratoriya janrı; vokal-simfonik musiqi; Azərbaycan bəstəkarlıq məktəbi

Bəstəkar yaradıcılığında sülh mövzusu dövründən asılı olmayaraq hər zaman aktualdır. Çünki bəşər cəmiyyəti formalaşdığı müxtəlif tarixi mərhələlərdə hər zaman toqquşmalar, müharibələr, böyük imperiyaların işğal siyasəti zaman-zaman ədəbiyyatda, incəsənətdə sülh mövzusunun ön plana

çıxmasına səbəb olmuşdur. Bu mövzu bəstəkar yaradıcılığında müxtəlif konsepsiyalarla ifadə olunur. Çünki, öz-özlüyündə sülh mövzusu müharibə və ya əmin-amanlıq şəraitində fərqli məzmun qazanır. Müharibə, inqilab, çevriliş kimi gərgin tarixi-siyasi şəraitdə sülh mövzusu ayrı-ayrı xalqların timsalında ümumbəşəri problemə çevrilərək təfsir edilir. Çünki, müharibə iki dövlət və ya bir neçə dövlət arasında baş versə də, burada insanlığa qarşı törədilən vəhşiliklər bütün dünyanı narahat edir. İnqilab və çevrilişlərdə daha çox sosial-siyasi məqamlar işıqlandırılır. Əmin-amanlıq şəraitində sülh mövzusu insanların rifahına yönələn addımların tərənnüm olunması ilə əlaqələnir. Bədii əsərlərdə böyük qurbanlarla əldə edilən sülhün qorunması uğruna edilən çağırışlar ön plana çıxır. Bu mənada şifahi xalq yaradıcılığı, epos və dastanlar, qəhrəmanlıq hekayələri və bu folklor mirasında təbliğ edilən sülh ideyası klassik ədəbiyyata, eləcə də musiqi sənətinə öz təsirini göstərmişdir.

Azərbaycan bəstəkarlarının yaradıcılığında sülh mövzusu hər zaman aktuallıq kəsb etmişdir. Xüsusilə müharibə dövründə (1941-1945) sülh mövzusu daha qabarıq planda müxtəlif janrlı əsərlərdə təmsil olunurdu. Ü.Hacıbəyli "Sovet Azərbaycanı musiqi mədəniyyətinin tərəqqisi" məqaləsində bu barədə yazırdı: "Müharibənin ilk dövründə Azərbaycan bəstəkarları müdafiə mövzusunda 400-dən artıq kütləvi mahnı, marş və xor mahnısı bəstələmişlər.<...> Azərbaycan musiqisi vətənpərvərlik hissi ilə dolu yeni əsərlərlə zənginləşmişdir. Bütün respublikanı əhatə edən yüksək vətənpərvərlik hissi Azərbaycan bəstəkarlarının yaradıcılığında da öz ifadəsini tapmışdır. Vətənə sədaqətlə xidmət, cəbhədə şanlı sovet döyüşçülərinin, arxada fəhlə və kolxozçuların misilsiz qəhrəmanlığı faşist Almaniyası ilə müharibə illərində Azərbaycan bəstəkarlarının yaratdığı vokal və instrumental əsərlərin əsas mövzusu olmuşdur. Müharibənin ilk dövründə Azərbaycan bəstəkarları müdafiə mövzusunda 400-dən artıq kütləvi mahnı, marş və xor mahnısı bəstələmişlər" (Hacıbəyli, Ü., s. ). Ü.Hacıbəylinin "Cəngi", "Qəhrəmani", "Vətən və cəbhə" kantatası, "Şəfqət bacısı", "Döyüşçülər marşı", "Çağırış" və s. mahnıları, A.Rzayevanın "Vətənpərvər gənclərin marşı", Q.Qarayevin və C.Hacıyevin birinci simfoniyaları, eləcə də birlikdə bəstələdikləri "Vətən" operası və digər bəstəkarların bu mövzuda yazılmış mahnıları, marşları qeyd edilə bilər. Bu əsərlərdə müharibənin törətdiyi acı nəticələrlə yanaşı insanların vətən uğrunda göstərdiyi şücaət və qəhrəmanlığı, eləcə də sülhün qorunması yolunda aparılan mübarizə tərənnüm edilirdi.

XX əsrin son iyirmi ili Azərbaycan xalqının tarixində faciələrlə, işğal və qaçqınçılıq kimi üzücü hadisələrlə yadda qalmışdı. Qarabağın işğal edilməsi, minlərlə insanın öz evindən, yurdundan qovularaq didərgin düşməsi, qaçqın və

köçkünlərin acınacaqlı taleyi, müharibənin törətdiyi faciələr incəsənət insanlarına da dərindən təsir etmiş, bu dövrün hadisələri ilə bağlı əsərlərin yaranmasına gətirib çıxarmışdı. Bu dövrdə ədəbiyyatda və incəsənətin müxtəlif növlərində xeyli sayda əsərlər yaranmışdı. Bu əsərlərin mövzusu bir sıra məqamları işıqlandırır və bir sıra əsas istiqamətləri müəyyən etmək mümkündür. Azərbaycanın müstəqillik əldə etdiyi dövrün həm tarixi, həm də siyasi məzmunda qazandığı nailiyyətlər ilk növbədə milli özünəqayıdış ideyası ilə təcəssüm olunur. Lakin bu mövzu həm də müstəqillik əldə edilən zaman verilən qurbanlar, Keçən əsrin 90-cı illərində Azərbaycanda baş verən bu hadisələrin analoji nümunələri keçmiş sovet respublikalarının bir çoxunda baş vermiş və nəticədə insana, xalqa, dövlətə qarşı törədilən cinayətlər kimi dünya tarixinə daxil oldu.

Sülh mövzusunun aktuallaşması bir daha ölkəmizin böyük bir ərazisinin düşmən tərəfindən zəbt edilməsi ilə baş vermişdi. XX əsrin 90-cı illərində öz müstəqilliyi uğrunda mübarizə aparan xalq bir-birinin ardınca böyük qırğınlara, faicələrə məruz qalmış, yüzlərlə insanlar canlarından keçərək şəhidlik zirvəsinə yüksəlmişdi. Bu dövrdə Azərbaycan mədəniyyətində müharibə, azadlıq, qəhrəmanlıq mövzuları yenidən diqqət mərkəzinə gələrək xeyli sayda yeni əsərlərin yaranması ilə nəticələnmişdi. C.Hacıyevin VII simfoniyası, A.Rzayevin “Bakı-90” simfoniyası, O.Kazıminin “Şəhidlər”, A.Dadaşovun XI simfoniyası, T.Bakıxanovun “Qarabağ harayı” simfoniyası, R.Mustafayevin “Bu qan yerdə qalmayacaq” vokal-simfonik poeması, S.Fərəcovun “Matəm harayları” simfonik lövhəsi və bir çox digər əsərlər 1990-cı il 20 yanvar və Qarabağda baş verən faciələrə həsr edilmişdi (Vəzirova G, Quliyeva G, 2020, s. 15). Bu dövrdə sülh mövzusu eyni zamanda azadlıq və müharibə, qəhrəmanlıq, şəhidlik kimi obraz səciyyəsi ilə vəhdətdə təqdim olunurdu.

Dünyada sülh ideyasının tərənnümçülərindən biri də məhz bəstəkar Fərhəng Hüseynov idi. Musiqi sənətinə keçən əsrin 70-80-ci illərində bəstəkar və violin ifaçısı kimi daxil olan F.Hüseynov vokal və instrumental musiqi janrlarına müraciət etmiş, eyni zamanda opera və balet kimi musiqili səhnə əsərləri bəstələmişdir. F.Hüseynovun yaradıcılığı dünya xalqlarının mədəniyyətinə, tarixinə, folkloruna müraciətlə səciyyəvi olan əsərlərlə zəngindir. O, violin və simli orkestr üçün Konsertin (1982), Simli alətlər üçün Serenada (1982), violin üçün sonata (1980), violin və fortepiano üçün 5 pyes (1974), 10 alət və kamera orkestri üçün Konsert, qoboy və simli alətlər üçün “Aşıq Alının xatirəsinə”, soprano, bas, xor və orkestr üçün müharibə əleyhinə Kantata, Orqan üçün mərasimlər (1991), soprano və simli kvartet üçün “Stabat mater” (1998), Kamera orkestri üçün “Fantazia Ladino” (1998-1999), 2 simli kvartet, soprano

və simli kvartet üçün “Günəş himni”, Fortepiano üçün Sonata, uşaqlar üçün fortepiano silsiləsi, Prelüd və tokkata (İmprovizasiya və tokkata) (1974), Fortepiano üçün fuqa (1979), “Mənim arzularım hardadır” (1983), “Polad adalar” (1985), “Xalça haqqında dastan” (1985), “Abşeron qalaları” (1989) kimi sənədli filmlərə musiqinin, “Zaman üzrə səyahət” simfonik konsertinin (1991), “Balaca Şahzadə” (1990) və “Kodayu” operalarının (1993), “Kraliça Aba” baletinin (2005-2006), Kapriççio Quarani (2000) və digər əsərlərin müəllifidir (Abdullayeva Z, 2020, s.395).

Sülh mövzusu F.Hüseynovun yaradıcılığından qırmızı xətt kimi keçmişdir. Bəstəkarın sülh mövzusuna həsr olunmuş əsərləri sırasında “Müharibə əleyhinə kantata” (soprano, bas, xor və orkestr üçün) (1987), soprano və simli kvartet üçün “Stabat mater” (1998), soprano və simli kvartet üçün “Günəş himni”, “Yer üzündə sülhə nail olmalı” oratoriyası (1995) kimi vokal-simfonik kompozisiyaları yer alır. 1995-ci ildə bəstələnmiş bu oratoriya Fərhəng Hüseynovun yaradıcılığında önəmli nailiyyətlərdən biri kimi yer tutur. Belə ki, “Yer üzündə sülhə nail olmalı” oratoriyasına görə bəstəkar Birləşmiş Millətlər Təşkilatının “Sülh zirvəsi” tituluna layiq görülmüşdür (Abdullayeva Z, 2019, s.89). Mükafatın elan edilməsi ilə bağlı bəstəkara ünvanlanan məktubda dünyanın müxtəlif ölkələrindən 100-dən çox müəllifinin əsəri sırasında məhz F.Hüseynovun oratoriyasının “Sülh zirvəsi” tituluna layiq görülməsi ilə bağlı fikirlər bildirilmiş, o cümlədən parlaq və dərin, sülh üçün əsl musiqi töhfəsi kimi dəyərləndirilmişdi (Novruzov N, 2017, s.7).

“Yer üzündə sülhə nail olmalı” adlı oratoriyanın adı partiturada “Dünyada sülh bərqərar olsun” kimi qeyd edilmişdir. Bəstəkar əsərdə əcnəbi müəlliflərin sözlərinə müraciət etmişdir. Partitura üzərində Naney Newhall, Robert Fielding və Catholic text yazılıb. Göründüyü kimi ayrı-ayrı müəlliflərlə yanaşı, kilsə mətnləri də daxil edilmişdir. Vokal partiyalar xorla yanaşı, uşaqlar, Soprano, Mezzo-soprano, Tenor, Bas arasında paylanır.

I hissə – İntroduksiya adlanır və bu bölmə qiraətçinin ifasında Naney Newhall-ın mətni əsasında çıxışı ilə başlanır. Onun məzmunu dünya, insan və onun təbii qayğıları haqqında fəlsəfi fikirləri əhatə edir. Təbiətin gözəlliyi, insan ruhunun sevgi və musiqi kimi qidası bu mətnin əsas hədəfini təşkil etmişdir. Qiraətçinin çıxışı tamamlandıqdan sonra bəstəkar ilk xanələri məhz zərb alətlərinə həvalə edirsə də, mövzunun başlanması qoboy, klarnet və trubanın ifasında səslənir. Fəlsəfi və düşüncəli məzmunu ilə seçilən bu mövzuda Rast muğamına xas olan giriş intonasiyalarını açıq şəkildə duymaq mümkündür.

Nümunə 1. F.Hüseynov. "Yer üzündə sülhə nail olmalı". I hissə – İntroduksiya.




Sərbəst improvizasiyalı reçitativ bir mövzunun həm də muğamlar içərisində ilk və qədim hesab edilən Rast intonasiyalarına əsaslanması təsadüfi deyil. Bəstəkar bu müdrik və təmkinli musiqi mətni ilə əsərin əsas qayəsi arasında bir bağlılıq yaratmağa nail olur. Bir qədər sonra qoboyun mövzusunu fleyta davam etdirir. Lakin bu dəfə alterasiyalı pərdələr də özünü göstərməyə başlayır. Onun inkişaf etdirdiyi musiqi mətni yenidən "re" mayəli Rast kadansına geri dönür və bu xanələrdə qiraətçinin partiyası daxil olur. Qeyd edək ki, bütün bu parçada ağac nəfəslilərlə birlikdə istifadə edilən zərb tembri də diqqəti cəlb edir. Oratoriyanın orkestr tərkibi zərb tərkibinin genişliyi ilə seçilir. Arfa, piano və orqan da daxil olmaqla partiturada 16 zərb aləti yer almışdır. İlk xanədən etibarən bu qrup aktivliyi ilə seçilir. Tədricən orkestrin digər üzvləri də musiqi mətninin formalaşmasında iştirak edir və 6 rəqəmindən etibarən mövzu həm imitasiya, həm də motivlərin paylanması ilə təqdim olunur.

Oratoriyanın I hissəsindən etibarən əsərin musiqi dilində bəstəkarın üslubu üçün səciyyəvi olan pentatonika intonasiyalarına da təsadüf edirik.

Fleyta piccolo partiyasında aşağı istiqamətli passaj (a-fis-e-d-h-a-fis-e-d) anqemiton pentatonika (xalis kvintalar ardıcıllığı) tərkibini dəstəkləyir. Bu tərkibi bəstəkar bir neçə yüksəklikdə vermişdir.

II hissə – The song for child's voice and mezzo-soprano and chorus (children's and adult's) (Uşaq səsi, mezzo-soprano, uşaq xoru və böyüklər xoru üçün mahnı) – uşaq xoru və orkestrin ifasında verilən sadə və səmimi melodiyası ilə seçilən musiqi nömrəsidir. Arpeciolu müşayiət arfa və pianoya həvalə edilmişdir. Əvvəlcə klarnetin ifasında verilən əsas mövzu ilk frazadan sonra uşaq xorunun ifasında yenidən başlanır. Diatonik fis-moll səslənməsində ilk xanələrdən pentatonika intonasiyalarını duymaq mümkündür. Onun xarakteri pentatonika əsaslı qədim folklor melodiyalarını xatırladır.

Nümunə 2. F.Hüseynov. "Yer üzündə sülhə nail olmalı". I hissə, fraqment




Nümunə 3. F.Hüseynov. "Yer üzündə sülhə nail olmalı". II hissə, uşaq xorunun partiyası




Mərkəzə doğru xorun səsləri iki və üç səsaltı ilə çoxsəslilik yaradır. Əvvəlcə uşaq xorunda yaranan divizi ilə başlanan çoxsəslilik daha sonra Soprano, Alt, Tenor və Bas səslərindən təşkil edilmiş qarışıq xorla əvəzlənir. Bununla belə, bəstəkar xorun partiyasını vertikal fakturada təqdim edir və xoral səslənməsi əldə edir.

III hissə "Reflections and recitativo for Tenoro and Basso" (Tenor və bas üçün refleksiya və reçitativ) adlanır. Bu hissədə qiraətçinin mətni daxil edilir. Marş xarakterli mövzu diatonik minor intonasiyaları ilə slavyan melodiyalarını xatırladır. Violoncelli və Contrabasso partiyasında verilən ostinato hissə boyu davam etdirilir. Qiraətçinin mətni həyat və ölüm haqqında fəlsəfi düşüncələri əks etdirir. Musiqinin xarakteri həm dərin, həm də emosional baxımdan pafoslu

xarakteri nümayiş etdirir. Bəstəkar məqsədli şəkildə ağac nəfəsli tembrə üstünlük versə də, simlilər əsas mövzunun təqdimatında iştirak edir.

IV hissəyə "Rondeau for peace" ("Sülhə həsr olunmuş rondo") adı verilmişdir. Burada Robert Fieldingin sözlərinə müraciət edilmişdir. Soprano, xor və orkestr üçün yazılmışdır. İlk baxışdan diqqəti cəlb edən qeyri-sabit metr ardıcıllaşması ritmik baxımdan sərbəst reçitativlik yaradır. Bu cəhət həm vokal, həm də orkestr partiyalarında özünü göstərir. Klarnetin partiyasında ostinatolu müşayiət verilir. Fleytanın ifasında isə əsas mövzu lirik melodiya ilə təqdim olunur. Daha sonra bu melodiya xorun partiyasında səsləndirilir. Burada kilsə mətnləri və İsa peyğəmbərlə bağlı ifadələr verilmişdir. Maraqlıdır ki, bəstəkar əsər boyu həm ingilis, həm latın, həm də azərbaycan dilində mətnlərə müraciət etmişdir. Qiraətçinin çıxışı demək olar ki, azərbaycan dilində verildiyi halda, xor və solistlərin partiyaları ingilis və latın dillərində mətnlərlə səciyyəvidir.

V hissə – Reflections II sərt replikalarla başlanır. Yenidən qiraətçinin mətni başlanır və burada insanlığa bir çağırış səslənir. Hələ hər şeyin itirilmədiyi, doğulacaq körpələr üçün yer üzünün xilas edilməsi üçün şansın olduğunu ifadə edən fikirlər səslənir. Oratoriyanın bu hissəsində ilk dəfə orqan partiyası daxil edilir. Uzun müddətli səslənən akkord tərkiblərinin fonunda qiraətçinin mətni emosional təsir gücünü bir qədər də artırmış olur. Xromatik keçidlər, geniş sıçrayışlar, alterasiyalı motivlərin sayı digər hissələrə nisbətən çoxluq təşkil edir və bu fakt orkestrin bütün partiyalarında özünü göstərir.

VI hissə – "Come, Holy Ghost" (Gəl, müqəddəs ruh) – campane və mis nəfəslilərin ifasında çağırış intonasiyaları əks etdirən girişlə başlanır. Bu hissədə yenidən kilsə mətnləri ön plana çıxır. Xorun ifasında verilən əsas mövzu bu dəfə zərb (tamburo sullante) ostinatosu və simlilərin müşayiətində səsləndirilir.

Xorun çıxışı yekunlaşdıqdan sonra mövzu fleyta və arfa duetində davam edir. Burada nisbətən lirik əhval-ruhiyyə və yumşaq, mərhəmətli obraz təqdim olunur. Əvvəlki hissələrdən yüklənmiş gərginlik hissi nisbətən azalaraq tədricən itir. Qadın xoru 6 rəqəmində bərpa edilir və simli, ağac nəfəsli (qoboy, klarnet) və arfa müşayiətində çıxış edir. Hər iki partiyada yanan divizi dördsəslilik yaradır və xoral fakturasını yaradır. İnstrumental partiyada mövzunun dəstəklənməsi ilə orkestr və xor arasında bir bütövlük, vəhdət yaranır. Bu hissədə bəstəkar sanki bir sülh himni yaratmağa nail olur. Hissənin sonunda qadın xoru kişi xoru ilə əvəzlənir.

Nümunə 4. F.Hüseynov. "Yer üzündə sülhə nail olmalı". VI hissə




VII hissə kimi qeyd edilən “İntermesso” solo Tenor və orkestr üçün bəstələnmişdir. Burada oratoriyanın əsas ideyasını əks etdirən “May peace prevail on Easth” (Qoy Yer üzündə sülh bərqərar olsun!) cümlə ilə başlanır. Çağırış intonasiyaları ilə xarakterik olan bu mövzu orqan və bir qədər sonra qoboy, trombonun müşayiəti ilə təqdim olunur.

Past 8- A sentence  “May peace prevail on Easth” on ninteen languages / Recitations for childreen (“Qoy Yer üzündə sülh bərqərar olsun” – 19 dildə / uşaqların reçitativi) – təntənəli final hissəsidir. Burada sülh ideyasını təbliğ edən şüar 19 dildə uşaqların ifasında təqdim edilir. İlk dəfə şüar azərbaycanlı uşaqlar tərəfindən oxunur. Daha sonra ingilis, alman, rus, koreya, yunan və s. dillərdə davam etdirilir. Orkestrin strettalarla qurulan fakturası maraqlı mənzərə yaradır. Bununla belə, xalis kvarta-kvinta səslənməsi ilə təşkil edilən musiqi intonasiyaları sülhün və sabitliyin təmsilçisi kimi özünü göstərir.

Əsas ideyanı təmsil edən bu şüar nəzərdə tutulan bütün dillərdə təkrar edildikdən sonra, yenidən azərbaycan dilində səsləndirilir. Orkestr tuttisi və xorun ifasında oxunan bu ifadə koda mövqeli marşda təqdim olunur. Ruh yüksəkliyi, həyatsevər və işıqlı xarakterdə tamamlanan oratoriyada bütün dünyanın sülh naminə birləşməyə çağıran şüarın sanki öz hədəfinə çatması marşın obrazlı məzmununu əks etdirir.

Nümunə 5. F.Hüseynov. “Yer üzündə sülhə nail olmalı”. Past 8.




Əsərdə vokal və instrumental musiqinin bərabər hüquqda paylanması, sülh konsepsiyasının təcəssümündə orkestrin rolu, əsas təmsilçilər olaraq uşaq xoru və dini mətnlərin tətbiqi F.Hüseynovun oratoriyasında müşahidə edilən əsas amillərdir. Məhz bu amillər bəstəkara sülhün obrazını yaratmağa, eləcə də onun təbliğini emosional təsir qüvvələri vasitəsilə həyata keçirməyə imkan yaratmışdır. Xüsusilə, dünyanın yaranmasına, insan və təbiət münasibətinin ilkin mərhələsinə, hər kəsin xoşbəxt ola biləcəyi sakit və hüzurlu yaşamın mümkünlüyünə dair fəlsəfi düşüncələrlə uşaq dünyasının saf duyğularının qovuşdurulması sülh obrazının yaradılması üçün maraqlı tapıntıdır. Orkestrdə orqan, arfa, rəngarəng zərb tembrlərinin tətbiqi ilə yanaşı əsas mövzuların ifasında ağac nəfəslilərin üstünlük nümayiş etdirməsi də əsas ideyaya qulluq edən yanaşmalardan biridir. Bu seçim daha çox həmin alətlərin oratoriyanın fəlsəfi məzmunundan doğan dərin və təmkinli mövzuların təqdimatı üçün uyğunluğu fikrindən irəli gəlmişdir.

Bəstəkarın sülh mövzusuna müraciəti dünyada baş verən müharibələrə qarşı yönəlmiş bir çağırış mövqeyi daşıyır. Xüsusilə bu çağırış nidalarını bəstəkarın "Müharibə əleyhinə kantata"sında duymaq mümkündür. Soprano, bas, xor və orkestr üçün 1987-ci ildə yazılmış bu kantata eyni zamanda Azərbaycanda və keçmiş sovetlər birliyində böhran dövrünə təsadüf edir. Bu böhran həm 70 illik imperiyanın dağılmasına yönələn siyasi hadisələrlə, həm də onun tərkibində olan xalqlar arasında süni şəkildə qızışdırılan milli ədavət problemindən yaranmışdı. Azərbaycan və Ermənistan arasında tədricən dərinləşən gərginləşmələr 1990-cı ildə Qanlı yanvar və Qarabağ uğrunda müharibənin başlanması ilə nəticələnmişdi. F.Hüseynovun bu kantatası

T.Aslanlının sözlərinə bəstələnmişdir. Əsər sovet dönəmi üçün mühüm tarixi hadisə hesab edilən Böyük Oktyabr İnqilabının 70 illik yubileyinə həsr olunmuşdu. Lakin, F.Hüseynovun yaradıcılığında sülh mövzusunun mövqeyinə nəzər salsaq, bu əsər ithafdan daha geniş və dərin ideyaları özündə birləşdirmişdir. Bir hissədən ibarət kompozisiyada ifadə edilən əsas məzmun daha çox dissonans səslənmələr, əksidilmiş intervallar, alterasiyalı intonasiyalar vasitəsilə çatdırılır. Maraqlıdır ki, F.Hüseynov bu əsərində daha çox müharibənin dəhşətlərini anlatmağa çalışmış, inqilaba həsr olunmasına baxmayaraq, kantatada əslində insanlığa qarşı cinayət obrazında verilən müharibənin qorxu və gərginlik törədən siması təsvir olunur.

F.Hüseynovun yaradıcılığında sülh mövzusu əsərin ümumi ideyasının tərkibində də özünü göstərir. Məsələn, bəstəkarın "Kodayu" operasında Rusiya və Yaponiya arasında gərgin münasibətlərin fonunda tacir Kodayunun rus balıqçıları tərəfindən xilas edilməsi, onun və yoldaşlarının sağ qalmasında göstərdikləri fədakarlıq sülh obrazının təcəssümü kimi çıxış edir. Eyni şəkildə "Kraliça Aba" baletində Olba krallığı və Roma imperiyası arasında münasibətlərin gərginləşməsinin Abanın sülhsevər siyasəti nəticəsində aradan qaldırılması səhnəsi misal ola bilər. Soprano və simli kvartet üçün 1998-ci ildə yazılmış "Stabat mater" sülh mövzusunu əzab çəkən ana obrazında təcəssüm etdirmişdir.

**Nəticə**

Bəstəkar yaradıcılığında sülh mövzusunun müxtəlif rakurslardan tərənnüm edilməsinə parlaq misal kimi Fərhəng Hüseynovun əsərləri diqqəti cəlb edir. Bu əsərlərdə sülh mövzusu həm müharibə, həm də rifah və əmin-amanlıq baxımından tərənnüm olunur. Bəstəkar sülhün anlamını həm obraz, həm də əsas ideyanın çatdırılması üçün aparıcı qüvvəyə çevrilir. Eyni zamanda F.Hüseynov sülh mövzusu üçün vokal-instrumental, xor, musiqili səhnə janrlarına müraciət edərək onun ümumbəşəri dəyərini ortaya qoymuşdur. Xor kollektivçilik və güc ifadə edir, kantatalar önəmli tarixi qələbələrə, qəhrəmanlıqlara həsr olunur, oratoriya janrı monumentallığı ilə güclü təsir qüvvəsinə malik bir janrdır. Bütün bu üstünlüklər F.Hüseynovun sülh mövzulu əsərlərində ustalıqla dəyərləndirilmişdir. Təhlilə cəlb etdiyimiz "Yer üzündə sülhə nail olmalı" oratoriyasında bəstəkar musiqi ifadə vasitələrinin gücündən məharətlə bəhrələnmiş, bu əsərdə sülh mövzusunu daha çox fəlsəfi məzmunda göstərməyə nail olmuşdur.

## Ədəbiyyat siyahısı

1. Abdullayeva Z. (2009). Fərhəng Hüseynov – 60. Musiqi dünyası, № 3-4(41), 118-119.
2. Abdullayeva Z. (2020). Fərhəng Hüseynov. Azərbaycan musiqi tarixi, V cild. Bakı: Elm, s.390-413.
3. Əliyeva A. (2024). Azərbaycan musiqi mədəniyyətində Fərhəng Hüseynovun yaradıcılıq nailiyyətləri. Musiqi dünyası, 4(101), s.86-90.
4. Hacıbəyli Ü. Sovet Azərbaycanının musiqi mədəniyyətinin tərəqqisi. URL: https://uzeyir.musigi-dunya.az/az/article44.html
5. Heydərova Ş. (2014). Fərhəng Hüseynov. Bakı: Şərq-Qərb nəşriyyatı.
6. Hüseynov F.R. (1995). "Yer üzündə sülhə nail olmalı" oratoriyası [Notlar] / Partitura. Əlyazma.
7. Novruzov N. Unudulmaz iki ömrün dastanı / Respublika. − 2017, 22 dekabr. − s.7.
8. Vəzirova G., Quliyeva G. (2020). Müstəqillik dövründəAzərbaycan musiqi mədəniyyətinin inkişaf təmayülləri. Azərbaycan musiqi tarixi, V cild. Bakı: Elm, s.10-53.

rus dilində

9. Алиева Ф.Ш. Японские дни Фарханга Гусейнова / Ирс. − 1999. − с.95-98.

**Айнура Алиева Тахир кызы**

# КОНЦЕПЦИЯ МИРА В ПРОИЗВЕДЕНИЯХ ФАРХАНГА ГУСЕЙНОВА

**Резюме:** В статье исследуются художественно-эстетические и философские аспекты воплощения темы мира в творчестве азербайджанского композитора Фарханга Гусейнова. Рассматриваются исторические предпосылки формирования идеи мира в музыкальном искусстве, а также особенности её интерпретации в азербайджанской композиторской школе. Особое внимание уделяется произведениям композитора, посвящённым гуманистическим идеалам, в числе которых кантата «Против войны», *Stabat Mater*, «Гимн солнцу» и оратория «Да восторжествует мир на Земле». Анализ показывает, что тема мира в

творчестве композитора раскрывается не только как антивоенный призыв, но и как философская концепция духовной гармонии человека, его единства с природой и утверждения общечеловеческих ценностей. Существенную роль в музыкальной драматургии произведений играют детский хор, религиозные тексты, многослойная оркестровая фактура, выразительные тембры деревянных духовых и богатая палитра ударных инструментов, усиливающие эмоционально-смысловое воздействие художественного образа мира. Таким образом, произведения Фарханга Гусейнова на тему мира являются ярким примером воплощения гуманистических идеалов в азербайджанской музыкальной культуре и обладают значительным художественно-философским содержанием.

**Ключевые слова:** Фарханг Гусейнов; тема мира; оратория; вокально-симфоническая музыка; азербайджанская композиторская школа.

**Aynura Aliyeva Tahir**

## THE CONCEPT OF PEACE IN THE WORKS OF FARHAN GHUSEYNOV

**Summary:** The article explores the artistic, aesthetic, and philosophical aspects of the embodiment of the theme of peace in the creative work of Azerbaijani composer Farhang Huseynov. It examines the historical prerequisites for the formation of the idea of peace in musical art, as well as the distinctive features of its interpretation within the Azerbaijani composer school. Particular attention is given to the composer’s works devoted to humanistic ideals, including the cantata Against War, Stabat Mater, Hymn to the Sun, and the oratorio May Peace Prevail on Earth. The analysis demonstrates that the theme of peace in the composer’s oeuvre is revealed not only as an anti-war appeal, but also as a philosophical concept embodying the spiritual harmony of humanity, its unity with nature, and the affirmation of universal human values. A significant role in the musical dramaturgy of these works is played by the children’s choir, sacred texts, multilayered orchestral texture, expressive woodwind timbres, and a rich palette of percussion instruments, all of which intensify the emotional and semantic impact of the artistic image of peace. Thus, Farhang Huseynov’s peace-themed compositions represent a vivid embodiment

of humanistic ideals in Azerbaijani musical culture and possess substantial artistic and philosophical depth.

**Key words:** Farhang Huseynov, theme of peace, oratorio, vocal-symphonic music, Azerbaijani composer school.

**Məqalənin redaksiyaya daxilolma tarixi: 09.05.2026**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.05.2026**